# GDU-da "Biz gənc beynəlmiləlçilərik" adlı tədbir

Fransanın Azərbaycandakı səfirliyinin dəstəyi və Gəncə Dövlət Universitetinin xarici dillər fakültəsinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş "Biz gənc beynəlmiləlçilərik" adlı Frankofoniya bayramı keçirilib. Gəncə Dövlət Universitetinin tələbələri dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasını fransız dilində təqdim ediblər.

Gəncə Dövlət Dram Teatrında keçirilən bayram tədbirində universitetin rektoru, professor Yusif Yusibov, ali təhsil müəssisəsinin professor-müəllim heyəti, tələbə kollektivi, valideynlər və ictimaiyyət nümayəndələri, eləcə də Fransa səfirliyinin təmsilçiləri iştirak edirdilər. İlk öncə, Azərbaycan və Fransanın dövlət himni səsləndirildi. Sonra, Frankofoniya bayramının tarixi və əhəmiyyəti haqqında iştirakçılara məlumat verildi. Bildirildi ki, "Frankofoniya" sözü ilk dəfə 1880-ci illərdə fransız coğrafiyaşünası Onezim Reklü tərəfindən fransız dilində danışan bütün insanları və ölkələri təyin etmək üçün işlədilib. Məhz həmin vaxtdan başlayaraq "frankofoniya" sözü bütün dünyada fransız dilini ana dili və yaxud ikinci dil olaraq istifadə edən insanların birliyini nümayiş etdirən bayram kimi qeyd edilib. Lakin bu məfhum ötən əsrin 60-cı illərinə doğru tədricən unudulmağa başlayıb. Buna baxmayaraq, sonradan bir çox dövlət və mədəniyyət xadimləri bu bayramı keçirmək üçün təşəbbüs göstəriblər. Məhz 1962-ci ildə ədəbiyyat xadimi, Seneqal Prezidenti Leopold Sedar Senqhor bu bayramın keçirilməsinin zəruriliyini bu cür qeyd edib. 1970-ci ildə Texniki və Mədəni Əməkdaşlıq üzrə Agentlik (hazırkı Beynəlxalq Frankofoniya Təşkilatı) yaradılıb. Hazırda Beynəlxalq Frankofoniya təşkilatına 80 dövlət və hökumət daxildir. Onlardan 57-i üzv, 23-ü isə müşahidəçi statusu daşıyır. Bu gün Beynəlxalq Frankofoniya Təşkilatına üzv olan dövlətləri siyasi, iqtisadi və mədəni əlaqələr birləşdirir.

Bayram tədbirində çıxış edən və xoş gün münasibətilə bütün kollektivi təbrik edən Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov Azərbaycan ilə Fransa arasındakı tarixi əlaqələrdən və hazırda hər iki dövlət arasındakı çoxtərəfli münasibətlərin mövcud vəziyyətindən danışdı. Son orta əsrlərdən başlayaraq Azərbaycandakı əsilzadə ailələrinin övladlarına bir sıra elmlərlə yanaşı, fransız dili də tədris edilməyə başlayıb. Beləliklə, fransız dilində sərbəst danışmaq həmin əsilzadə ailələrin övladları üçün yüksək mədəniyyətin göstəricisi kimi qəbul edilib. Həmçinin, Azərbaycan bədii nəsrinin ilk nümunəsi olan "Rəşid bəy və Saadət xanım" hekayəsini İsmayıl bəy Qutqaşınlı fransız dilində yazıb.



Hər iki xalq arasındakı ikitərəfli münasibətlərin bugünkü vəziyyətindən də danışan Yusif Yusibov bildirdi ki, Fransa Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlətdir (31 dekabr 1991-ci il). Həmçinin, 1992-ci ildə Fransa öz səfirliyini ölkəmizdə açan ilk dövlətlərdəndir. Fransa, məqsədi Ermənistan ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini axtarmaq olan ATƏT-in Minsk qrupuna həmsədrlik edir. Bu dövlət, eyni zamanda, Avropa qonşuluğu siyasəti çərçivəsində, Avropa Birliyi və Azərbaycan arasında əməkdaşlıqda da fəal rol oynayır. 2011-ci il oktyabrın 7-də Prezident Sarkozi Bakıya gəlib və Prezident İlham Əliyevlə birlikdə Bakı Fransız Liseyinin ilk təməl daşını qoyub. Hazırda Azərbaycan Fransa arasında siyasi, iqtisadi və mədəni əlaqələrin yüksək səviyyədə olduğunu deyən rektor Yusif Yusibov bildirdi ki, hər iki dövlət arasındakı elm-təhsil əlaqələrinin, xüsusən Gəncə Dövlət Universiteti ilə Fransa universitetləri arasında qurulan münasibətlərin ildən-ilə inkişaf etməkdədir. Bu gün universitetin xarici dillər fakültəsinin Fransız dili ixtisasında 100-dən artıq tələbə təhsil alır və hazırda Gəncə Dövlət Universiteti ilə Fransanın 3 ali təshil müəssisəsi - Strasburq - 2 Universiteti, Şampan Alven Universiteti və Yuxarı Elzas Universitetləri daha sıx əməkdaşlıq edir. Məhz bu cür qarşılıqlı əlaqələrin nəticəsində GDU ilə həmin universitetlər arasında akademik heyət üzvləri və tələbələrarası mübadilə həyata keçirilir. Bir çox beynəlxalq proqramlar icra olunur, konfranslarda iştirak və səfərlər təmin edilir. Bu cür əməkdaşlığın daha bir nümunəsi isə hər il Gəncə Dövlət Universitetində təşkil olunan Frankofoniya bayramlardır. Məhz bu bayram şənliyi çərçivəsində çoxlu sayda fransız milli musiqiləri və rəqslər ifa olunur, səhnəciklər nümayiş etdirilir. Bu cür münasibətlərin daha da inkişaf etdirilməsi məqsədilə yaxın günlərdə universitetdə Aleksandr Düma Mərkəzi fəaliyyətə başlayacaq.

Sonra Gəncə Dövlət Universiteti tələbələrinin ifasında fransız milli musiqiləri, rəqslər ifa olunub.

**Zabit XƏLİLOV,**
**"Respublika".**